# 2025-ci ilin fevral ayı ərzində texniki xidmət üzrə keçirilmiş monitorinqin nəticələrinə dair məlumat

Enerji Məsələlərini Tənzimləmə Agentliyinin (EMTA) Bakı, Kürdəmir və Şəki filiallarının əməkdaşları 2025-ci il fevralın 12-dən 28-dək qaz paylayıcısı olan “Azəriqaz” İstehsalat Birliyinin (İB) Bakı Regional Qazın İstismarı Departamenti, Ağsu və Zaqatala Regional Qaz İstismar İdarələri tərəfindən qaz paylayıcı şəbəkəyə texniki xidmətin həyata keçirilməsinə monitorinq keçirmişdir.

Monitorinqlər nəticəsində qaz paylayıcısı tərəfindən qaz paylayıcı şəbəkədə həyata keçirilən texniki xidmət barədə qaz kəmərlərinin istismar jurnalında, o cümlədən qaz tənzimləyicilərinin pasportunda müvafiq qeydlərin, habelə qaz paylayıcı şəbəkədə təzyiq rejimlərinə nəzarət məqsədilə təbii qazdan maksimal istifadə saatlarında ölçmələrin aparılmadığı və müvafiq qaydada sənədləşdirilmədiyi müəyyən edilmişdir. Həmçinin qaz paylayıcısı tərəfindən qaz paylayıcı şəbəkəyə qanunsuz qoşulma hallarının qarşısının alınması məqsədilə qanunvericiliklə nəzərdə tutulan qaydada və müddətlərdə şəbəkəyə baxış keçirilmədiyi və nəticəsinin aktla rəsmiləşdirilmədiyi müəyyən olunmuşdur.

Müəyyən edilmiş nöqsanların aradan qaldırılması məqsədilə EMTA tərəfindən “Azəriqaz” İB-yə icrası məcburi olan göstəriş verilmişdir.